# Azərbaycanla Bolqarıstan arasında siyasi əlaqələr yüksək səviyyədədir



İyunun 20-də Milli Məclisin Sədri Oqtay Əsədov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin 53-cü Baş Assambleyasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Bolqarıstan Xalq Məclisinin Sədri Tsveta Karayançevanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nümayəndə heyətini salamlayan Oqtay Əsədov bildirdi ki, Azərbaycanla Bolqarıstan arasında əlaqələrin dərin kökləri var. Hələ Sovetlər birliyi dövründə də iki ölkə arasında elm, mədəniyyət və təhsil sahəsində sıx əlaqələr qurulmuşdu. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu münasibətlər daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Ölkələrimiz arasında siyasi əlaqələr də yüksək səviyyədədir. Siyasi əlaqələrimizin inkişafında dövlət başçıları və onların qarşılıqlı səfərlərinin mühüm rolu var. Prezident İlham Əliyevin 2015-ci ilin mart ayında Bolqarıstana səfəri zamanı imzalanmış “Strateji Tərəfdaşlıq haqqında Bəyannamə” qarşılıqlı əlaqələrin genişləndirilməsinə əhəmiyyətli töhfə verir.

Hazırda Azərbaycan hökuməti və Bolqarıstan hökuməti arasında iqtisadi-ticarət və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiya fəaliyyət göstərir. Ölkələrimiz arasında ticarət dövriyyəsi artmaqda davam edir. Ticarət dövriyyəmizi daha da artırmaq üçün geniş potensial mövcuddur.

Sədr daha sonra qeyd etdi ki, bu gün ölkələrimiz enerji sahəsində də uğurlu əməkdaşlıq edirlər. Bolqarıstan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə olan “Cənub qaz dəhlizi”nin iştirakçısıdır. Azərbaycan Bolqarıstan vasitəsilə Avropaya enerji daşıyıcıları təchizatı ilə bağlı layihələri inkişaf etdirmək niyyətindədir.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən xanım Tsveta Karayançeva iki ölkə arasındakı münasibətlərin inkişafından məmnunluğunu ifadə etdi. Söhbət əsnasında təhsil, mədəniyyət, parlamentlərarası əlaqələrin inkişafı barədə də fikir mübadiləsi aparıldı. Ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığı yüksək qiymətləndirildi, parlamentlərarası dostluq qruplarının fəaliyyətlərinin daha da gücləndirilməsinin vacibliyi vurğulandı.

Görüşdə Milli Məclis Sədrinin müavini Bahar Muradova, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak edirdilər.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***

Azərbaycan.- 2019.- 21 iyun.- S.3.